# İtaliyalı ekspert: Azərbaycan karbohidrogen istehsalçısı kimi dünya iqtisadiyyatında mühüm yer tutur - MÜSAHİBƏ

Azərbaycan qlobal iqtisadiyyata inteqrasiya siyasətini həyata keçirir, regional infrastrukturunu yaradır və genişləndirir. Bu gün Bakı iri neft-qaz layihələrində iştirak edir və bütün regional enerji layihələrində əsas oyunçudur. Ölkənin iqtisadi potensialı, xammal və faydalı qazıntı ehtiyatları və əlverişli iqtisadi-coğrafi mövqeyi əməkdaşlığın artmasına şərait yaradır ki, bu da xarici iqtisadi əlaqələrdə struktur və keyfiyyət dəyişikliklərindən xəbər verir.

Mövzu ilə bağlı AZƏRTAC-ın suallarını beynəlxalq münasibətlər üzrə professor, iqtisadçı, Çin üzrə ekspert, "European Journal of International Relations" jurnalının keçmiş redaktoru, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Paris ofisinin keçmiş rəhbəri Cüzeppe Sakko cavablandırır.

**- Azərbaycan Cənubi Qafqazın dünya iqtisadiyyatına inteqrasiyasında hansı rolu oynaya bilər?**

- Əgər bu regionun müxtəlif komponentlərinin hansısa formada birliyə inteqrasiyası üçün siyasi arena və ya proses olsaydı, Azərbaycan mühüm rol oynaya bilərdi. Amma reallıq ondan ibarətdir ki, bu regionun komponentlərinin fərqli yolları var. Əksinə, onlar açıq-aşkar müxtəlif geosiyasi ambisiyaların hədəfinə çevrilirlər və dünya iqtisadiyyatı qloballaşmaya deyil, daha çox müharibələrə və ticarətin parçalanmasına doğru irəliləyir. Azərbaycanın beynəlxalq rolu və mövqeyi əhəmiyyətli dəyişikliklərə məruz qalıb. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin əsas xarakterik xüsusiyyəti onun beynəlxalq, regional və yerli xarakterli iqtisadi təşkilatlara daxil olması, habelə ölkənin ictimai həyatının bütün sahələrinin bu təşkilatlara inteqrasiyasıdır. Buna, ilk növbədə, Azərbaycanın əlverişli coğrafi mövqeyi, böyük karbohidrogen ehtiyatlarının olması, ölkənin enerji, nəqliyyat və gələcəkdə telekommunikasiya dəhlizlərinin inkişafında fəal iştirakı kömək edir.

**- Enerji təchizatının, o cümlədən Asiya ilə Avropa arasında ticarətin genişləndirilməsi üçün Orta Dəhliz layihəsinin əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Orta Dəhliz layihəsi Çini Avropa ilə birləşdirməyə yönəlmiş böyük layihədir. Bu, Çin-Azərbaycan münasibətlərinin iqtisadi deyil, siyasi gələcəyinin müəyyən olunduğu "masadır". Qərbi Avropanın əvvəlki qiymətlərdən dəfələrlə baha qiymətə rus qazından Amerika qazına keçməyə məcbur olmasının özü onu göstərir ki, biz hərbi səmərəliliyin iqtisadi səmərəlilikdən qat-qat vacib olduğu yeni dövrə qədəm qoymuşuq.

**- Azərbaycan və Çin arasında iqtisadi və ticari əməkdaşlıq potensialını necə qiymətləndirirsiniz? Üçüncü ölkələrdə Azərbaycan-Çin birgə layihələrinin həyata keçirilməsi üçün hansı imkanlar mövcuddur?**

- Azərbaycan və Çin arasında iqtisadi və ticari əməkdaşlıq potensialı böyük və əhəmiyyətlidir. Azərbaycan əlverişli coğrafi mövqeyinə və artan Çin iqtisadiyyatının ehtiyac duyduğu enerji ehtiyatlarının bu ölkədə mövcudluğuna görə bu ölkənin siyasətində xüsusi yer tutur. İqtisadiyyatı da inkişaf etməkdə davam edən Azərbaycanın Çinlə əməkdaşlığa ehtiyacı var. Bu gün "Bir kəmər, bir yol" təşəbbüsünün Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu ilə birləşdirilməsi istiqamətində ciddi iş aparılır. Ölkələr arasında alternativ enerji mənbələri sahəsində əməkdaşlıq mövcuddur; Azərbaycan Çində 5 ticarət evi açıb. 2023-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi rekord həddə - 3,1 milyard dollara çatıb. Bu da 43 faiz artım deməkdir.

**- "Bir kəmər, bir yol" təşəbbüsünün həyata keçirilməsində Azərbaycanın rolu nədən ibarətdir?**

- Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünün (KYT) birgə təşviqinə qoşulan və bu təşəbbüsdə fəal iştirak edən ilk ölkələrdəndir. Azərbaycan hökuməti "Bir kəmər, bir yol" təşəbbüsünə böyük əhəmiyyət verir və haqlı olaraq hesab edir ki, bu layihənin həyata keçirilməsi ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynaya bilər. Çin və Azərbaycan KYT çərçivəsində nəqliyyat, logistika və anbar təsərrüfatı, liman tikintisi və elektron ticarət sahəsində əməkdaşlıq üçün geniş imkanlara malikdir. Onu da qeyd edək ki, bu nəhəng layihənin həyata keçirilməsi ilə Azərbaycan və Çin arasında əvvəllər isti olan münasibətlər dərinləşməyə və ciddi siyasi-iqtisadi xarakter almağa başladı. 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, o cümlədən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin və digər regional nəqliyyat və enerji layihələrinin həyata keçirilməsi Azərbaycan-Çin münasibətlərinə yeni dinamika verib.

**- Çindən Avropaya ən qısa yol Azərbaycandan keçir. Bu marşrut üzrə tranzit yük dövriyyəsi illər ərzində necə dəyişib? Azərbaycan üzərindən yükdaşımaların artırılması perspektivlərini görürsünüzmü?**

- Bu perspektivlər Avrasiyadan və ya Qırmızı dənizdən keçən digər ticarət yollarının necə işləməsindən asılı olacaq. Bu ölkələrin bir çox sahələrdə əməkdaşlığa və investisiya ticarətinə, eləcə də real mal və xidmətlərə böyük maraq göstərmələrinin əsas səbəbi təkcə resurslar baxımından bir-birini tamamlamaları deyil. Unutmayaq ki, Azərbaycan Çin və Avropa arasında ən əlverişli marşrutlardan birini təklif edir. Bu məsələnin aktuallığı indiki dövrdə, xüsusən də Ukraynadakı müharibə fonunda daha aydın görünür. Rusiyaya qarşı tətbiq edilən sanksiyalar bir tərəfdən Qərbi Avropa, digər tərəfdən Avrasiya məkanı arasında iqtisadi münasibətlərdə ciddi və ehtimal olunan uzunmüddətli problemlərə gətirib çıxarır.

**- Çin bərpaolunan enerji sahəsində dünya liderlərindən biridir. Azərbaycan da öz növbəsində bu istiqamətdə inkişafını hədəfləyib. Bu sahədə əməkdaşlıq varmı?**

- Hazırda bərpaolunan enerji ilə bağlı qlobal bazarlar əsasən Çindən fotovoltaik panellərin ixracı ilə seçilir. “Desertec” layihəsinin uğursuzluğundan sonra (Saharada dünyanın ən böyük Günəş elektrik stansiyaları sisteminin tikintisi üzrə Almaniya layihəsi) enerji ixracı ideyası bərpaolunan mənbələrdən yalnız çox kiçik miqyasda mümkün və real olduğu ortaya çıxdı. Azərbaycan əsasən karbohidrogen istehsalçısı kimi dünya iqtisadiyyatında hələ də mühüm yer tutur. Lakin buna baxmayaraq, Azərbaycan postkarbon iqtisadiyyatının inkişafında dünyanın digər ölkələri, o cümlədən Çinlə əməkdaşlıqda ortaq maraqlıdır. Çin şirkətləri Azərbaycanda bərpaolunan enerjinin böyük potensialını reallaşdırmaq üçün irimiqyaslı layihələrdə iştirak etməkdə maraqlıdırlar.

**- Azərbaycanda keçiriləcək COP29 iqlim dəyişikliyi ilə mübarizə üçün gələcək addımların müəyyən edilməsində mühüm rol oynayacaq. Sizcə, konfransın əsas mövzuları hansı məsələlər olacaq?**

- İqlim konfranslarının ildən-ilə neft ixracatçıları olan ölkələrdə keçirilməsi planetdə həyatın qorunmasında beynəlxalq iştirakın azalmasının əlaməti kimi qəbul edilir. Ona görə də Azərbaycan hakimiyyəti bu ümumi fikri təkzib edəcək şəkildə hərəkət etsəydi, son dərəcə yaxşı olardı. Yeni və bərpaolunan enerji mənbələri sahəsində Çin-Azərbaycan əməkdaşlığı möhtəşəm uğurlar əldə edib. Çin müəssisələri Azərbaycanda Günəş və külək enerjisi layihələrini davamlı şəkildə həyata keçirirlər. Çin “Bir kəmər, bir yol” təşəbbüsü ətraf mühitin mühafizəsi konsepsiyasını gerçəkləşdirməyə, Azərbaycan tərəfi ilə yaşıl iqtisadiyyat sahəsində əməkdaşlığı daha da inkişaf etdirməyə, davamlı inkişaf yolunu axtarmağa hazırdır.

**AZƏRTAC**
**2024, 29 iyun**